## SƏN MƏNİ NİYƏ SEVDİN?

(*Zarafat*)

Yanında heç qalammadım
Həmdəmin də olammadım
Başına da dolanmadım –
Sən məni niyə sevdin?

Ağlasan da, gülsən də sən
Sənin ki olan deyiləm
Xoşuma çox gəlsən də sən
Səni ki alan deyiləm –
Sən məni niyə sevdin?

Yollarını gözləmədim
Addım-addım izləmədim
Səni heç əzizləmədim –
Sən məni niyə sevdin?

Gəl aləmi seyrə dalaq
Gəl dünyadan hesab alaq
Dünyada min rəng, lisan var
Gözünü aç, ətrafa bax
Gör nə qədər xoş insan var
Çoxu da məndən cavanlar –
Sən məni niyə sevdin?

Məndə nə var? Nə uca boy
Nə minillik şan-şöhrət, soy
Nə cüssə, nə enli kürək
Olan-qopan: bir quru can
Və...yumruq boyda bir ürək –
De, ay mələk, söylə görək
Sən məni niyə sevdin?

Sanki yatmışdın, oyandın...
Qəfil oda düşdün, yandın
Bəlkə bu sənə əyandı –
Sən məni niyə sevdin?

Son vaxtlar heç sözüm keçmir
Gözüm də dünyanı seçmir
Səndən heç gözüm su içmir
Sən məni niyə sevdin?